

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 210 (23.622)

*3 dekabr 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*“İxrac ili” – 2020*

## İnvestisiyanın təşviqi mexanizmi istehsalı və ixracı stimullaşdırır

***Bu gün muxtar respublika iqtisadiyyatının dinamik yüksəlişini, etibarlı ərzaq təminatı və daimi məşğulluğun təmin olunmasının təməlini sahibkarlığın inkişafı təşkil edir.***





Muxtar respublikada sahibkarlığın inkişafının, eləcə də əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək yönündə həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri sahibkarlar sinfinin formalaşması və dövlət tərəfindən göstərilən hərtərəfli dəstək tədbirləri fonunda iqtisadiyyatda özəl sektorun payının daha da artmasıdır.

Son illərdə muxtar respublikada həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən olan sənayenin inkişafı sahəsində də kompleks işlər görülür, sənaye məhsulu istehsalı və ixrac potensialının artırılması, investisiya qoyuluşunun stimullaşdırılması üçün effektiv mexanizmlər tətbiq edilir. Belə mexanizmlərdən biri də investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi məqsədilə tətbiq edilən investisiya təşviqi sənədidir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası” və 2016-cı il 29 aprel tarixli Fərmanı ilə “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi xüsusi vurğulanmalıdır. Bu mühüm dövlət sənədi son 5 ildə muxtar respublika iqtisadiyyatının aparıcı sahəsi olan sənayeyə yönəldilən investisiyaların həcminə və strukturuna mühüm təsir göstərmişdir.

İqtisadiyyat Nazirliyi tərəfindən verilən investisiya təşviqi sənədi sənaye, kənd təsərrüfatı, turizm sahələrində məşğul olan hüquqi şəxs və fərdi sahibkarlara vergi və gömrük güzəştlərindən yararlanmaq imkanı yaradır. Belə ki, sahibkarlıq subyektinin əldə etdiyi gəlir və mənfəətin 50 faizi 7 il müddətinə müvafiq vergilərdən, əmlakı isə 7 il müddətində əmlak vergisindən tam azad olunur. Həmçinin investisiya təşviqi sənədi alan sahibkarlıq subyektləri tərəfindən xaricdən gətirilən texnika, texnoloji avadanlıq və qurğulara qanunvericiliklə müəyyən olunmuş güzəştlər tətbiq edilir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası investisiya fəaliyyətinin həyata keçirildiyi inzibati ərazi vahidləri üzrə təsnifatda 5-ci regiona daxil edilmişdir. Bu isə o deməkdir ki, muxtar respublikamız investisiya qoyuluşlarına tətbiq edilən minimal məbləğ baxımından ən yüksək güzəştlərə malikdir.

Təsdiqedici sənəd isə investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı vergi və gömrük güzəştləri əldə etmək üçün əsas yaradır. Tətbiq olunan bu dəstək mexanizmi son illərdə muxtar respublikada yeni müəssisələrin yaradılmasına, mövcud müəssisələrin istehsal gücünün və istehsal olunan məhsul çeşidinin artırılmasına təkan vermişdir.

Naxçıvan Muxtar Respublikasında ötən dövr ərzində 12 sahibkarlıq subyektinin 15 layihəsinə ümumi dəyəri 69 milyon 410 min 113 manat olan investisiya təşviqi sənədi təqdim edilmişdir ki, bu layihələr Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayonlarında da reallaşdırılmışdır. Bu da, öz növbəsində, həmin rayonlarda sənayenin inkişafında və məşğulluğun təmin olunmasında əksini tapmışdır. Sənayenin qida, metallurgiya, kimya, mebel kimi sahələrini əhatə edən layihələrin reallaşdırılması ilə 300-dən artıq iş yeri yaradılmışdır.

İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə verilən təsdiqedici sənədlər çərçivəsində idxal edilmiş 47 milyon 912 manatdan çox dəyərdə Türkiyə, Çin Xalq Respublikası, eləcə də Avropa mənşəli texnika, texnoloji avadanlıq və qurğular idxal zamanı tətbiq olunan vergi və rüsumlardan azad olunmuşdur. Bu da, öz növbəsində, istehsal xərclərinin azalmasına, beləliklə də, rəqabətqabiliyyətli məhsul istehsalına şərait yaratmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, investisiya təşviqi sənədindən yararlanaraq fəaliyyətini genişləndirən müəssisələrdə istehsal olunan məhsullar, nəinki muxtar respublikada əhalinin tələbatını yüksək səviyyədə ödəyir, eləcə də xarici bazarlara ixrac edilir. Sevindirici haldır ki, bu gün Rusiya, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri, İraq, Oman Sultanlığı, Yəmən, Əfqanıstan və digər ölkələrə ixrac edilən yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsulların çox hissəsi həmin müəssisələrdə istehsal olunur.

Dövlət dəstəyi ilə bu cür təşviq mexanizmlərinin tətbiqi sahibkarlara investisiya layihələrinə daha çox vəsait yönəltməyə, istehsalın həcminin və rəqabətqabiliyyətli məhsul ixracının genişlənməsinə əlavə imkanlar yaradır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Test imtahanı keçirilmişdir



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində çalışan işçilərin peşəkarlığının obyektiv qiymətləndirilməsi, tutduqları vəzifələrə uyğunluğunun müəyyənləşdirilməsi və gələcək inkişaflarının təmin edilməsi məqsədilə dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən onların attestasiyası üzrə test imtahanı keçirilmişdir.

İmtahanda qanunvericilik üzrə 100 sual təqdim edilmiş, sualları cavablandırmaq üçün namizədlərə 2 saat 30 dəqiqə vaxt verilmişdir. İmtahanda test tapşırıqlarının ən azı 60 faizini (60 bal) düzgün cavablandırmış şəxslər müvafiq keçid balını toplamış sayılırlar.

Attestasiya üzrə test imtahanında iştirak etmək üçün qeydiyyatdan keçmiş 18 nəfərdən 16-sı test imtahanında iştirak etmiş, 15-i müvafiq keçid balını toplamışdır.

Test imtahanının nəticələri Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilmişdir.

Bundan başqa, noyabrın 16-da Dövlət Gömrük Komitəsində, və 18 noyabrda Ədliyyə Nazirliyində çalışan işçilərin, 20-30 noyabr tarixlərində isə dövlət musiqi təhsili müəssisələrində işləyən müəllimlərin attestasiyası üzrə test imtahanları keçirilmişdir. Ümumilikdə, imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçmiş 886 nəfərdən 835-i test imtahanlarında iştirak etmiş, 368-i müvafiq keçid balını toplamışdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Yeni quruculuq ünvanları





Şahbuz rayonu son illərdə muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən quruculuq tədbirləri, dövlət qayğısı və zəhmətkeş insan əlləri ilə müasir yaşayış məntəqəsinə çevrilib. Hər il rayon mərkəzində, kəndlərdə müxtəlif istiqamətlərdə xeyli sayda inşaat işləri görülür. Təhsil, səhiyyə, rabitə və digər infrastrukturlar üçün müasir standartlara cavab verən yeni binaların tikintisi, yolların abadlaşdırılması, sahibkarlara normal iş şəraiti yaratmaq istiqamətində həyata keçirilən tədbirlər hər bir şahbuzlu tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir. Cari ildə də belə tədbirlər davam etdirilir. Rayon mərkəzində artıq son tamamlama işləri aparılan ictimai yaşayış binası şahbuzluların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa edilib. Zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan yaşayış binasının zirzəmisində müxtəlif xidmət sahələri fəaliyyət göstərəcək. 40 mənzildən ibarət olan bina liftlə təmin ediləcək. Tikintisi “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən aparılan bina şəhərin gözəlliyinə əlavə çalarlar gətirəcək.

İnsanların sağlamlığının qeydinə qalmaq muxtar respublikamızda dövlət siyasətinin əsas prinsiplərindən biridir. Şahbuz rayonunun Ağbulaq kəndində tikilən həkim ambulatoriyası da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır. Ambulatoriya 1 mərtəbədən, 7 otaqdan ibarətdir. Müasir səhiyyə avadanlıqları quraşdırılacaq ambulatoriyada tibbi xidmətin yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılacaq. Yeni səhiyyə müəssisəsinin binasında baş həkim, stomatoloq, müayinə üçün kabinet və digər otaqlar olacaq.

**Telli MƏMMƏDOVA**

## Təlim-məşq bazasının tikintisi davam edir



Muxtar respublikada keçirilən beynəlxalq səviyyəli idman yarışlarının reallaşması və bu sahədə həyata keçirilən tədbirlər idmanın bütün növlərinin inkişafına göstərilən dövlət qayğısından xəbər verir. Tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı” təsdiq edilib. Proqramın məqsədi əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bu sahənin maddi-texniki bazasının müasirləşdirilməsi və gücləndirilməsi, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılmasından ibarətdir. Dövlət proqramına uyğun olaraq muxtar respublikada idman infrastrukturunun modernləşdirilməsi, yaşayış yerləri və kütləvi istirahət zonalarında əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün xüsusi yerlərin ayrılmasının təşkili Gənclər və İdman Nazirliyi ilə aidiyyəti qurumların diqqət mərkəzindədir.

Cari ilin avqust ayından etibarən Uzunoba gölünün ətrafındakı ərazidə tikintisinə başlanılan Naxçıvan Futbol Federasiyasının təlim-məşq kompleksi bu sahəyə göstərilən qayğının davamıdır. Federasiyanın təlim-məşq kompleksinin ərazisinə iki tribunadan ibarət süni örtüklü futbol stadionu, üstüörtülü və hasara alınmış minifutbol meydançaları, iki tribunalıq çimərlik futbolu stadionu və inzibati bina daxildir. Eyni zamanda tribunaların daxilində paltardəyişmə, hakim və həkim otaqları da mövcuddur.

İnşaat işlərinin gedişinə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Futbol Federasiyası nəzarət edir. Eyni zamanda Türkiyə Cümhuriyyətinin Mersin şəhərindən muxtar respublikamıza süni meydançaların quraşdırılması üzrə mütəxəssis dəvət olunub.

Hazırda meydançanın müxtəlif hissələrində inşaat işləri gedir. İnzibati bina, çimərlik futbolu stadionu və tribunalarda hörgü işləri tamamlanıb, dam örtüyü vurulub, əraziyə su-kanalizasiya, elektrik xətləri və metal hasar çəkilib. Tikililərin fasad və interyerinin suvaq işi də yekunlaşıb. Hər üç süni meydançanın bünövrəsi tamamlanıb. Artıq üstüörtülü stadionun dəmir konstruksiyaları qurulmaqdadır. Bununla yanaşı, süni örtüklü futbol stadionu və ətrafındakı minifutbol meydançasının səthində hamarlama işləri yekunlaşıb.

Tikinti işlərinin növbəti ilin birinci yarısında yekunlaşdırılması nəzərdə tutulub.

**Ceyhun MƏMMƏDOV**

*Qədim diyarımız Naxçıvan bir qərinəyə yaxındır ki, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Şərur rayonu da bu inkişafdan öz payını alıb. Yaxın günlərdə bölgənin Qarabürc kəndində yaradılan şərait də bunun əyani sübutudur. Bu kəndə ezamiyyətə gedərkən hamar, qara örtüklü yollarla ünvana doğru irəlilədikcə düşünürəm ki, abad yol iqtisadiyyatın göstəricisidir.*

### Müasirləşən kəndlərimiz

# Qarabürcün yeniləşən görkəmi

Bəli, bu gün muxtar respublikamızda istənilən ucqar dağ və sərhəd kəndlərinə belə, üz tutduqda yolların rahatlığına heyran olmaya bilmirsən. Ənənəmizə sadiq qalaraq yola düşməzdən əvvəl kəndin adı haqqında araşdırma da aparmışdım. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun “Naxçıvanın oykonimləri” kitabından öyrənmişdim ki, bu ad Qarabürc qalasının adı ilə bağlı yaranıb. “Qara” və “burc” tərkib hissələrindən ibarət olan adın birinci tərəfi “böyük, nəhəng”, ikinci tərəfi isə “qala, səngər” mənalarında işlənərək “böyük, nəhəng qala” anlamını verir. Bu barədə düşüncələrdən sürücünün səsi ayırır məni: – Gəlib çatdıq, bu da Qarabürc. Kənd ilk baxışdan insanı heyran edəcək mənzərə ilə qarşılayır. Ötən ay istifadəyə verilən kənd və xidmət mərkəzlərinin və məktəbin görüntüsü bu yurd yerinə füsunkar bir gözəllik bəxş edib.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Sücəddin Orucovdan aldığımız məlumata görə, burada 590 sakin yaşayır. Sakinlər heyvandarlıq və əkinçiliklə məşğul olurlar. Yurd yeri qoçaq insanların məskənidir. Lakin uzun müddət burada müasir infrastrukturun olmaması insanların yaşayışına öz təsirini göstərirdi. Dövlətimizin qayğısı nəticəsində bizim kəndimiz də firavan günlərinə qovuşdu. Burada 2 mərtəbəli kənd mərkəzi tikilib istifadəyə verilib. Binada polis sahə, baytarlıq məntəqələri, bələdiyyə, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və poçt bölməsinin fəaliyyəti üçün geniş şərait yaradılıb. Həmçinin kənd mərkəzində insanların sağlamlığının qeydinə qalmaq üçün feldşer-mama məntəqəsinə də yer ayrılıb.


Dünən


Məktəb

Bu gün

Kənd mərkəzindən sonra müasir təhsil şəraiti yaradılan məktəblə tanış oluruq. Məktəbin direktoru Zülfiqar Məmmədov bildirir ki, əvvəlki məktəb təlim-tədris prosesi üçün aşağı səviyyədə idi. Bu səbəbdən də əziyyətimiz az olmurdu. Lakin bu gün gördüyünüz şəraiti izah etmək üçün sözün gücü çatmır. 120 şagird yerlik 3 mərtəbədən ibarət olan təhsil ocağında fizika və kimya-biologiya laboratoriyaları, şahmat kabinəsi, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı istifadəmizə verilib. Yəni ən yüksək səviyyədə təhsil almaq üçün hər cür şəraitimiz var. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məktəbimizin açılışında demişdir: ***“Pedaqoji kollektivin formalaşması, yaradılan şərait imkan verir ki, növbəti tədris ilində Qarabürc kənd ümumi orta məktəbi tam orta məktəbə çevrilsin. Bunun üçün lazımi tədbirlər görüləcək. Müəllimlərin üzərinə düşən vəzifə isə yaradılanlardan istifadə etməklə tədrisin səviyyəsini yüksəltmək, vətənpərvər gənclərin yetişdirilməsinə diqqəti artırmaqdır. Məktəbdəki əyani vəsaitlər imkan verəcəkdir ki, tədris şagirdlərə əzbərləmək deyil, qavrama yolu ilə öyrədilsin. Ötən tədris ilində məktəbin 9-cu sinif bazasından iki şagirdin Heydər Əliyev adına Hərbi Liseyə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olunması məktəbin nailiyyətidir”.*** Məktəbimizin pedaqoji kollektivi bu dəyərli fikirlərlə qürur duymaqla yanaşı, həm də onu fəaliyyət proqramına çevirib.

Məktəbdəki şərait bizdə də böyük sevinc hissi yaradır. Təhsil ocağının qazandığı uğurlarla tanış olmaq istəyirik. Öyrənirik ki, məktəbin şagirdləri test-sınaq imtahanlarında, fənn olimpiadalarında, müxtəlif idman yarışlarında, müsabiqələrdə fəallıq göstərirlər.

Xidmət mərkəzində yerləşən ərzaq mağazasından alış-veriş edərək evinə gedən Asif Ağayevlə tanış oluruq. 65 yaşlı Asif dayı müxbir olduğumuzu bilən kimi böyük sevinclə əlindəki ərzaqları göstərərək deyir: “Ay qızım, evimizin qarşısındaca yerləşən mağazada hər şey var. Çox asanlıqla kənd sakinləri bu xidmət mərkəzindən lazım olanları əldə edə bilirlər. Elə kənd mərkəzindəki xidmətlər də ürəyimizcədir. Bütün bunlar biz sakinlərə göstərilən diqqət və qayğının nümunəsidir. Yollarımıza baxanda isə insanın ürəyi lap dağa dönür. Çünki bir vaxtlar yolumuzun bərbadlığı səbəbindən əziyyətimiz çox olub. Maşınlarımız kəndə gedib gəlməkdə problemlərlə üzləşirdi. Artıq bu çətinliklər yaşanmır”.

Asif dayı ilə söhbət edə-edə onun evinə yaxınlaşırıq. Burada bizi evin xanımı Cəmilə xala qarşılayır. Cəmilə xala öz həyətində ocaq qurub qış tədarükü görür – Naxçıvan qovurması hazırlayır. Elə söhbətimizə ocaq başındaca davam edirik. Adı dillər əzbəri olan qovurmanın hazırlanma qaydasını danışan Cəmilə xala deyir ki, qışa hazırlığın ən son mərhələsi qovurma mövsümüdür. Lakin buna hazırlıq erkən yazdan başlayır. Mart ayında doğulan quzulardan ən yaxşısı seçilir və payıza kimi bəslənir. Elə ki vaxtı gəldi, həmin heyvan kəsilib soyulur. Lakin onu qovurmalıq üçün hər adam doğraya bilməz. Kəndlərimizdə bu işi bilənlər vardır ki, qovurma hazırlananda onlar mütləq köməyə çağırılırlar. Ət doğrandıqdan sonra yaxşıca yuyulur. Bu arada bir kənarda heyvanın quyruğu doğranıb, qazana yığılıb ocağa qoyulur ki, əriməkdə olsun. Ət yuyulduqdan sonra onu böyük qazanda qaynamağa qoyuruq. Lakin işimiz bununla bitmir. Əsas məsələ də elə buradan başlayır. Çünki ət qaynara düşdümü, diqqətli olmaq lazımdır ki, onun kəfi tam yığılsın. Əks halda, təngovun rəngi qaralar və əti kəf basar. Qaynayıb bişdikdən sonra suyunu süzüb əti qızartmaq üçün ləyənə tökürük. Diqqət etmək lazımdır ki yaxşı qızarsın və duzu yerində olsun. Qızardıqdan sonra əti əvvəlcədən hazırlanmış qovurma qablarına yığıb öz yağını da üstünə tökürlər. Çünki onun yağı özünü basmalıdır. 15-20 gündən sonra qovurma tam dadın alır.

Cəmilə xala ilə söhbətimizdə onu da öyrənirik ki, o, qış hazırlığında qovurma ilə kifayətlənməyib, müxtəlif turşular, yeməklər də hazırlayıb.

Bu zəhmətkeş ailə ilə sağollaşarkən öyrənirik ki, kənddə ailə təsərrüfatçıları da var. Onlardan biri də Qəşəm Kərimovdur. Onun yaşadığı evə üz tuturuq. Təsərrüfat başçısı deyir ki, 15 ildən artıqdır, sahibkarlıqla məşğul olur. 8 hektar ərazidə meyvə bağı salan Qəşəm müəllim onun 5 hektarında alma, 3 hektarında isə ayrı-ayrı meyvə sortları yetişdirir. Payızda yığılan məhsulun böyük əksəriyyətini Naxçıvan şəhərində ənənə halını almış kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında və elə



bağındaca satan bu zəhmətkeş insan 80 tonluq soyuducu anbar da tikdirib. Deyir ki, payızda qalan məhsulu bu anbarda qışa saxlayır. Beləliklə, bazarlarımızda qıtlıq yaranmamasına öz töhfəsini verən Qəşəm müəllim təkcə bununla da kifayətlənmir. Belə ki, o, icarəyə götürdüyü torpaqlarda qarğıdalı və buğda əkini ilə də məşğul olur. Təkcə cari ilə 31 hektar sahədə qarğıdalı, 10 hektar sahədə buğda əkən sahibkar yaxşı yaşamağın sirrini zəhmətdə görür: “Ay qızım, atalarımız boş yerə deməyiblər ki, iş insanın cövhəridir. İşləməyən dişləməz. Əmək insan həyatının, onun sağlamlığının və firavan yaşayışının birinci və əsas şərtidir. Xoşbəxtliyin açarı zəhmətdə, alın tərindədir. Səadətə, xoş günlərə gedən yol yalnız əmək cəbhəsindən keçir. Əmək insanı ucaldır, onu şöhrətləndirir. Mən ata-babalarımdan belə görmüşəm. Onlar altı da, üstü də qızıl olan torpaqdan bərk-bərk yapışıblar. Mən də bu gün övladlarıma bunları öyrətməyə çalışıram. Elə bilirəm, buna nail olmuşam ki, onlar da torpaqdan ikiəlli yapışıblar. Dövlətimiz sağ olsun, bizim üçün istənilən şəraiti yaradıb. İstər toxum, gübrə sarıdan, istər sahibkarlıqla məşğul olmaq istəyən kəndlilərə subsidiyaların verilməsində, istərsə də istehsal etdiyimiz məhsulların yarmarkalara çıxarılmasında heç bir çətinliyimiz olmur. Kəndli də daha nə istəyə bilər ki…”

*Sahibkarla şirin söhbətə dalıb zamanın necə keçdiyinin fərqinə varmadan günün sonuna yaxınlaşırıq. Artıq qayıtmağın vaxtıdır. Sevinirik, qürur duyuruq ki, doğma Vətənimizdə belə qurub-yaradan əllər və Asif dayı, Cəmilə xala, Qəşəm müəllim kimi yaradılan şəraitdən istifadə edərək yurduna, ocağına bağlı insanlarımız var.*

**Telli MƏMMƏDOVA**

# Ordumuzun zəfər gücü

## Bu güc həm də Azərbaycanın mənəvi qalibiyyətini təmin etdi (II yazı)

***10 noyabr 2020-ci il. Bu tarix Azərbaycana qarşı aparılan ədalətsiz bir savaşda Xeyrin Şər üzərində qələbə çaldığı gündür. Bu Qələbə Azərbaycan əsgərinin gücü, Ali Baş Komandanımızın qətiyyəti, böyük siyasi iradəsi ilə qazanıldı. Elə buna görədir ki, 28 ildir, işğal altında olan ərazilərimizin böyük, həm də strateji əhəmiyyətli hissələri ordumuzun qəhrəman övladlarının yüksək döyüş bacarıqları sayəsində azad olundu. Təbii ki, II Qarabağ müharibəsində Azərbaycanın qazandığı qələbə təkcə hərbi və siyasi deyil, həm də mənəvi baxımdan əhəmiyyət daşıyır.***

İlk olaraq bunu qeyd etməliyik ki, Birinci və İkinci Qarabağ müharibələri fərqli dövrləri əhatə etsə də, hər iki savaşın analogiyasına digər münaqişələrdə rast gəlmək mümkün deyil. Prinsip etibarilə bu müharibələr bir-birinin davamıdır, yalnız aparıldığı tarixi dövrlərə görə biz bunları ayrı-ayrı təqdim edirik. Əgər Azərbaycan ərazilərinin işğalı ötən əsrin 90-cı illərində ölkədə yaranmış xaos, siyasi hərc-mərclik, eləcə də heç bir nizami orduya malik olmadığımız dövrə təsadüf etmişdirsə, İkinci Qarabağ müharibəsi yeni dövrün tələblərinə uyğun silahlanmış, güclü siyasi iradəyə və qətiyyətə malik dövlət başçısının komandanlığı altında aparılırdı.

Təbii ki, müharibələr dağıntı, qan-qada, ölüm deməkdir. İkinci Dünya müharibəsindən başlayaraq müasir dövrə qədər dünyada baş verən müharibələrə nəzər salsaq, görərik ki, onların heç biri erməni faşizmi ilə müqayisə oluna bilməz. Əgər dünya ölkələri faşizmin nə olduğunu ozamankı faşist Almaniyasının idarəçiləri və onların törətdikləri hadisələrin nəticələri ilə dərk edib öyrənmişdirsə, erməni faşizminin mahiyyətini dərk etmək üçün Azərbaycanla aparılan bu müharibələrə nəzər salmaq yetərlidir. Bir az da detallara varaq. Məsələn, Birinci Dünya müharibəsində də alman faşizmi tərəfindən soyqırımı hadisələrinə imza atılıb. Lakin öldürülmüş mülki şəxslərin meyitləri üzərində təhqiramiz hərəkətlərə, həm də kütləvi şəkildə yol verilməsinə tarix Xocalıdan başqa bir yerdə şahidlik etməyib. Və yaxud götürək hərbi əsir, girov və ya digər şəraitdə saxlanılan insanlarla münasibəti. Əgər alman faşistləri əsirlərdən ən pis halda müxtəlif tibbi əməliyyatların sınaqlarında istifadə edirdisə, erməni faşizmi ağlagəlməyən bu tip “sınaqlardan” “ruhlarının dirçəlişi” üçün istifadə edirdilər. Siz dünyanın heç bir ölkəsində faşizm təbliğatını açıq-aşkar təbliğ edən, onunla bağlı kitablar nəşr edən, nümayişkaranə şəkildə bunu yüksək kürsülərdən söyləyən dövlət idarəçiləri, siyasətçilər və “ziyalılar”ı görə bilməzsiniz.



Siz dünyanın hər hansı bir münaqişə bölgəsində tarixi abidələrin daş-torpağından, qəbiristanlıqlarından, dilsiz-ağızsız ağaclarından heyfini çıxacaq nasist hərəkətlərə də rast gələ bilməzsiniz. Çünki nasizmin bioloji irqçiliyə əsaslanan ideologiyası bu sadaladıqlarımızı törətmək üçün tam yetərli deyil. Bunun üçün həm də dünyanın “seçilmiş milləti” – erməni olmalısan. Bu müharibələri digərlərindən fərqli edən həm də budur ki, dövlətçilik tarixinə malik olmayan ermənilər onlara öz torpaqlarında yüz il bundan əvvəl dövlət yaratmağa icazə vermiş bir ölkənin digər ərazilərini işğal edərək növbəti dövlətlərini yaratmaq istəyirdilər, amma buna nail ola bilmədilər. Və bütün bunlara rəğmən bu 44 günlük müharibədə Azərbaycan dünya hərb tarixində ən ədalətli müharibə aparan tərəf kimi tarixə düşdü. Belə ki, müharibənin davam etdiyi hər gün ən yüksək səviyyədə ermənilər işğal etdikləri ərazilərdən çıxacaqları halda məsələnin sülh yolu ilə həll olunacağına çağırdı. Ancaq bu çağırışlar heç bir nəticə vermədi. Erməni hərbi birləşmələri dinc yaşayış məntəqələrimizi qadağan olunmuş dağıdıcı gücə malik silahlarla atəşə tutanda da Azərbaycan analoji addımı atmadı, bunun cavabını döyüş meydanında verdi. Hətta düşməni təslimçi sülhü imzalamağa məcbur edəndən sonra da, əvvəlcədən bildirdiyi kimi, Azərbaycanın yurisdiksiyasında de-fakto olacaq ərazilərdə ermənilərin də yaşaya biləcəyini bildirdi. İndi siz deyin, təkcə son yüz ildə baş verən hadisələrə baxmayaraq, xəstə təxəyyüllü düşmənə belə, dünyanın ən ədalətli müharibəsini aparan Azərbaycana tolerantlıqda hansısa bir ölkəni misal göstərmək mümkündürmü? Təbii ki, yox!

Təsadüfi deyil ki, Azərbaycan əsgəri 44 günlük bu müharibədə bir zamanlar silahsız və köməksiz mülki əhali üzərində “qalib” gəlmiş “yenilməz erməni ordusu” mifini darmadağın etdi. Azərbaycan Ordusu həyata keçirilən uğurlu döyüş əməliyyatları ilə Xocalı cinayətkarlarını məhv edərək bu soyqırımın qisasını erməni hərbçiləri və muzdlularından alaraq xalqımızın mənəvi rahatlığını təmin etdi. Xalqımız üçün mədəniyyət və mənəviyyat mərkəzi sayılan Şuşanın süngü-bıçaqla, qol gücü ilə, erməni əsgərinə göz-gözə qorxu yaşadılaraq alınması bu rahatlığın sərhədini daha da genişləndirdi. Mənəvi qələbəmizin ən pik nöqtəsi isə bu oldu ki, müharibənin davam etdiyi dövrdə bütün dünyanın gözü önündə Azərbaycan Prezidenti tərəfindən dəfələrlə alçaldılan, mənliyi tapdalanan erməni hərbi-siyasi lideri gecə ikən ona verilən təslimçi Bəyanatı qorxudan imzaladı. Bunu da xatırlatmaqda fayda var ki, müasir və müstəqil Azərbaycanın tarixinə yazılan bu Qələbə xalqımızı natamamlıq kompleksindən qurtardı, özümüzə güvənimizi artırdı. İllərdir, bizə açıq və gizli şəkildə təlqin olunan “Qarabağın açarı sizdə deyil” düşüncəsini darmadağın edən Azərbaycan əsgəri, həm də bu açarın öz əlində olduğunu bütün dünyaya sübut etdi. Şəhidlər versək də, qazilərimiz olsa da, indi daxilən çox rahatıq. Və bu rahatlığı çoxdan gözləsək də, heç zaman özümüzə hiss etdirə bilməmişdik. İndi isə hissetmə zamanıdır – yenilməzliyi, müzəffərliyi, qalibiyyəti!.. Çünki artıq Qarabağ Azərbaycandır!

**Səbuhi HƏSƏNOV**

*Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlarla bağlı qanunvericilik sistemində yeni təminatların təsbit edilməsi dövlətin uşaqlara olan diqqətinin göstəricisi olmaqla yanaşı, həm də onların cəmiyyətə inteqrasiyasına təkan verən amildir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir".***

*Dövlət proqramı icra olunur*

# Sağlamlıq imkanları məhdud uşaqlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar



Muxtar respublikamızda da sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası ilə bağlı tədbirlərin əhatə dairəsi genişlənməkdə davam edir. Həyata keçirilən tədbirlər bu kateqoriyanın nümayəndələrinin sosiallaşmasına, sağlam həyat tərzinə, təhsilə maraqlarının artmasına, bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradır. Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlbi onların cəmiyyətə inteqrasiyasının ilkin mərhələlərindən biri hesab olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın da məqsədi sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, inklüziv təhsilə keçid imkanlarının artırılması, distant təhsilin əhatə dairəsinin genişləndirilməsidir.





Proqramda nəzərdə tutulmuş tədbirlərin icrası iyul-sentyabr aylarında diqqət mərkəzində olmuş və məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barədə yaradılmış məlumat bazasının yenilənməsi davam etdirilmişdir. Hazırda muxtar respublikada bu yaş kateqoriyasına aid 272 sağlamlıq imkanları məhdud uşaq vardır. Həmin uşaqların hər biri dövlət qayğısı ilə əhatə olunmuşdur ki, bu da onların həyatında və inkişafında mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var".***

Sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil müəssisələrinə cəlb edilməsi onların sosial, estetik inkişafına, zəruri həyati bacarıqlara, milli və ümumbəşəri dəyərlərə yiyələnmələrinə şərait yaradır. Dövlət proqramında bu məqsədlə nəzərdə tutulan tədbirin icrası üçüncü rübdə həyata keçirilmiş, əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə 26 sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur. Hazırda məktəbəqədər təhsil müəssisələrində bu kateqoriyadan olan 68 uşaq qeydiyyatdadır.

Bu sosial kateqoriyadan olan uşaqların həmyaşıdları ilə birlikdə təhsilə cəlb edilməsi onların cəmiyyətə inteqrasiyasına nail olmağın başlıca şərtlərindəndir. Üçüncü rübdə 31 sağlamlıq imkanları məhdud uşaq mövcud potensialları nəzərə alınaraq ümumtəhsil müəssisələrinə cəlb edilmişdir. Ümumilikdə, muxtar respublikada 1062 sağlamlıq imkanları məhdud uşaq ümumtəhsil məktəblərinin müvafiq siniflərində təhsilini davam etdirir.

Naxçıvanda sağlamlıq imkanları məhdud uşaqlar təhsilə cəlb edilərkən əqli və fiziki imkanlarının müxtəlifliyi, xüsusilə nəzərə alınır. Belə ki, muxtar respublikada eşitmə və hərəkət qabiliyyəti məhdud uşaqlar üçün distant dərslər təşkil olunur, görmə qabiliyyəti məhdud uşaqlar xüsusi ibtidai məktəbə cəlb edilir. Dövlət proqramında da bu istiqamətdə tədbirlərin həyata keçirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Üçüncü rübdə Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə 4 uşaq cəlb olunmuşdur. Hazırda məktəbdə 10 sağlamlıq imkanları məhdud uşaq təhsil alır. Proqramın icrasına uyğun olaraq əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 12, eləcə də eşitmə qabiliyyəti məhdud 7 sağlamlıq imkanları məhdud uşaqla tədris prosesi davam etdirilir.

Muxtar respublikada bu sosial kateqoriyadan olan şəxslərin təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından kənarda qalmaması üçün görülən işlər davamlı xarakter almışdır. Bu baxımdan ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə təhsilinə cəlb edilməsi mühüm önəm kəsb edir. Üçüncü rübdə Dövlət proqramının icrası istiqamətində 5 sağlamlıq imkanı məhdud uşaq peşə təhsilinə cəlb edilmişdir.

Bütün bunlarla yanaşı, iyul-sentyabr aylarında sağlamlıq imkanları məhdud 4 uşaq bacarıq və maraqları nəzərə alınaraq məktəbdənkənar tərbiyə müəssisələrinin dərnəklərinə cəlb olunmuşdur. Hazırda bu müəssisələrdə 115 sağlamlıq imkanları məhdud uşaq qeydiyyatdadır.

Sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması Dövlət proqramının əsas istiqamətlərindən birini təşkil edir. Bu kateqoriyadan olan uşaqların müasir dövrün texnoloji imkanlarından istifadə etməsi ilə bağlı görülən işlər onların həmyaşıdlarından geri qalmamasına və inteqrasiya imkanlarının çoxalmasına gətirib çıxarır. Üçüncü rübdə bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunmuş onlayn məşğələlərə 33 uşaq cəlb edilmişdir.

Proqramın əhatə dairəsinə daxil olan uşaqlarla təhsilin təşkilində maddi və digər tələbatların ödənilməsi stimullaşdırıcı əhəmiyyət daşıyır. Bu məqsədlə həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud uşaqların dövlət qayğısı ilə əhatə olunmasının əsas göstəricilərindəndir. Üçüncü rübdə Dövlət proqramının icrasına uyğun olaraq tədrisə cəlb edilmiş 290 sağlamlıq imkanları məhdud uşaq məktəbli geyimi və dərs ləvazimatları ilə təmin olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial adaptasiya işində bədən tərbiyəsi və idmanın rolu böyük əhəmiyyət daşıyır. İntellekt, nitq, eşitmə, görmə, hərəkət və ünsiyyət çatışmazlığı olan bu kateqoriyalı uşaqlarda istifadə edilən idman çalışmaları əqli və fiziki pozulmaların qarşısının alınmasında, uşaqların ümumi inkişafında əsaslı rol oynayır. Bütün bunlar nəzərə alınaraq sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikada fəaliyyət göstərən idman məktəblərinə cəlb edilməsi prosesi davam etdirilir. Üçüncü rübdə muxtar respublikada sağlamlıq imkanları məhdud 7 uşaq idman məktəblərinə cəlb olunmuşdur. Eyni zamanda istedadlarının aşkara çıxarılması məqsədilə iyulun 8-də sağlamlıq imkanları məhdud uşaqlar arasında stolüstü tennis, avqustun 6-da dart idman növü üzrə muxtar respublika birincilikləri keçirilmişdir. Üçüncü rübdə bu sosial kateqoriyanın nümayəndələri arasında "Vətəni tanı" və "Xəmsə" intellektual oyunları təşkil olunmuşdur. Həmçinin sağlamlıq imkanları məhdud uşaqlar arasında idmanın müxtəlif sahələri üzrə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyası 5 idman tədbiri keçirmişdir.

İdrak fəaliyyəti, nitq, davranış və şəxsiyyət problemlərinin aradan qaldırılmasında sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili müstəsna əhəmiyyət daşıyır. Üçüncü rübdə uşaqların intellektual və mənəvi inkişafı, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakının təmin edilməsinə yönələn tədbirlər davam etdirilmişdir. Avqustun 17-də Culfa Rayon Texniki Yaradıcılıq Mərkəzində rəsm və əl işlərindən ibarət sərgi təşkil olunmuş, sentyabrın 2-də uşaqların Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dulusçuluq və qum sənəti dərnəklərində onlayn iştirakı təmin edilmişdir. Sentyabr ayında sağlamlıq imkanları məhdud uşaqlar arasında "Gözəlləşən diyarım Naxçıvan" mövzusunda bilik, "Biz sülh istəyirik" adlı rəsm, "Azərbaycan Vətənimdir" başlıqlı şeir müsabiqələri keçirilmişdir.

Dövlət proqramında nəzərdə tutulan maarifləndirmə xarakterli tədbirlərin gerçəkləşdirilməsi cəmiyyətin diqqətini bu sosial kateqoriyanın nümayəndələrinə cəlb etməklə onların hərtərəfli qayğı ilə əhatə olunmasında əvəzolunmaz rol oynayır. Kütləvi informasiya vasitələrində maarifləndirici məlumatların verilməsi sağlamlıq imkanları məhdud uşaqlara xüsusi həssaslıqla yanaşılmasını təmin edir. İyul-sentyabr aylarında sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiyası tədbirləri ilə bağlı Naxçıvan Dövlət Televiziyasında 4 veriliş, 15 süjet efirə təqdim olunmuş, Naxçıvan Dövlət Radiosunda 4 veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 9, rayon (şəhər) qəzetlərində 22 məqalə dərc edilmişdir.

**"Şərq qapısı"**

*Yeni nəşrlər*

# Azərbaycan kimya elmi tarixində ilk ensiklopedik nəşr

***Azərbaycanda elmin çox zəngin tarixi və ənənələri vardır. Əsrlərboyu Azərbaycan alimləri elmi təfəkkürün müxtəlif sahələrində meydana gətirdikləri sanballı əsərlərlə bəşəriyyətin elmi-mədəni yüksəlişinə böyük xidmətlər göstərmiş, Şərqlə Qərb arasında elmin varislik əlaqələrinin qorunub saxlanması işinə dəyərli töhfələr vermişlər. Dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır. Naxçıvan Muxtar Respublikasında da elmin inkişafı dövlət siyasətinin əsas prioritet sahələrindən biridir. Ölkənin davamlı inkişaf strategiyası, habelə müasir dünyada baş verən qlobal iqtisadi proseslər muxtar respublikamızın elmi əsaslar üzərində inkişafını zərurətə çevirir.***




Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin dəstəyi və tarixi sərəncamı ilə yaradılan Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi dövlətin diqqət və qayğısı ilə qısa müddət ərzində böyük inkişaf yolu keçmişdir. Alimlərimiz Naxçıvanşünaslıq elminin inkişafı və tədqiqi sahəsində nailiyyətləri ilə seçilmiş, Azərbaycan və dünya elminə töhfələri ilə diqqəti cəlb etmişlər. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında da dərc edilmişdir. Bütün bu uğurların əsasında elmin inkişafı, elmi-tədqiqat işlərinin səmərəliliyi məqsədilə yaradılan maddi-texniki baza, müasir elmi-texniki və informasiya texnologiyalarının ən son nailiyyətlərinin geniş tətbiqi dayanır. Qazanılan bu uğurlar isə məhz ulu öndər Heydər Əliyevin siyasi kursunun muxtar respublikamızda uğurla davam etdirilməsinin nəticəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində tarix, ədəbiyyat, incəsənət və digər elmlərin tədqiqi və təbliği ilə yanaşı, kimya elminin də inkişafına xüsusi fikir verilir. Muxtar respublika rəhbərinin müasir dövrdə sənayenin inkişafını şərtləndirən kimya elminə verdiyi töhfələrdən biri də AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyalarının müasir cihaz və avadanlıqlarla təchiz olunması və müasir elmi-tədqiqatların aparılmasına münbit şəraitin yaradılmasıdır. Kimya elminin inkişafına dəstək məqsədilə elmi-tədqiqat və ali təhsil müəssisələrində, eləcə də orta ixtisas təhsili müəssisələrində laborator tədqiqatların aparılması üçün müasir təchizatlı innovasiya laboratoriyalarının yaradılması da buna əyani sübutdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il 6 avqust tarixli Sərəncamı ilə təhsilin inkişafı sahəsində görülən işlərin və maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin müasir tədris avadanlıqları ilə təmin olunması, pedaqoji heyətin təkmilləşdirilməsi, kimya və biologiya fənləri üzrə şagirdlərin istedad və bacarıqlarının aşkar edilməsi, inkişafı, həmçinin gələcək ixtisas seçiminin istiqamətləndirilməsi məqsədilə Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması da təbiət elmlərinin öyrənilməsi işinə dövlət dəstəyinin bariz ifadəsidir.

2020-ci ildə 30-dək sanballı elmi-tədqiqat əsərinin çapını həyata keçirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu kimya elmləri doktoru Bayram Rzayevin təqdimatında "Qısa kimya ensiklopediyası"nı 300 tirajla nəşr etdirmişdir. Bu, kimya elminin inkişafı sahəsində görülən işlərin davamı kimi xüsusi əhəmiyyəti ilə seçilir.

Bu günədək Bilik Fondunun dəstəyi ilə yüzlərlə kitab, jurnallar nəşr edilmiş, muxtar respublika və ölkə mətbuatında məqalələr dərc olunmuş, kitabların maarifləndirici, tarixi və ictimai-siyasi əhəmiyyəti yüksək qiymətləndirilmişdir.

Qeyd edək ki, ensiklopediyada kimyəvi elementlər və onların birləşmələri haqqında məlumatlar, kimyada ən ümdə hadisə və kəşflər, kimya statistikası, iqtisadi inkişafda kimyanın rolu haqqında geniş məlumatlar verilib. Kitab Azərbaycan kimya elmi tarixində ilk ensiklopedik nəşr olmaqla, 118 elementin xronoloji ardıcıllıqla kəşfi və elementlərin kimyəvi əhəmiyyəti, onları kəşf edən alimlər haqqında məlumatları əks etdirir. Ensiklopediyanın birinci hissəsində hər bir elementin Azərbaycan və latın dillərində adı verilir, sonra onu kəşf edən alim(lər)in şəkli, doğum tarixi, həyatı və elmi fəaliyyəti haqqında qısa informasiya təqdim olunur. Burada, eyni zamanda elementin və onun birləşmələrinin sənayedə, kənd təsərrüfatında, ümumiyyətlə, insan fəaliyyətinin müxtəlif sahələrində tətbiqi haqqında bəhs edilir. Bu ardıcıllıq birinci element hidrogendən başlamış sonuncu 118-ci elementə qədər sabit saxlanılır.

Ensiklopediyanın ikinci hissəsi kimyada ən ümdə hadisə və kəşflərin xronologiyasından ibarətdir. Burada istənilən kimyaçı keçən əsrin əvvəllərindən sonunadək kimya elminin ixtiraları, nəzəriyyələr, ümumiləşmələr barədə məlumatlar, dünya miqyasında kimya elmi sahəsindəki yenilikləri asanlıqla əldə edə bilər.

İkinci bölmədə, eyni zamanda elementlərin kəşf olunma ardıcıllığı qorunmaqla onları kəşf edən alimlər haqqında məlumatlar verilmiş və elementlər şərh edilmişdir.

Məlumat nəşrinin üçüncü bölməsində "Rusiya, Almaniya və Yaponiya 119 və 120-ci elementlərin sintezinə hazırlaşır", "Kimya statistikası haqqında anlayış" və "İqtisadi inkişafda kimyanın rolu" yarımbaşlıqları altında maraqlı yazılar verilmişdir.

*"Qısa kimya ensiklopediyası" yalnız kimyaçılar üçün deyil, təbiət elmləri sahəsində tədqiqat aparan alimlər, pedaqoji fəaliyyətlə məşğul olan ziyalılar, eləcə də ali və orta məktəblərin tələbə və şagirdləri üçün faydalı və əhəmiyyətli mənbə ola bilər.*

**Surə SEYİD**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun sədr müavini***

***Hərtərəfli inkişafın əsas meyarlarından biri də əhalinin sağlam epidemioloji mühitlə təminatıdır. Çünki epidemioloji vəziyyətin sabitliyi həyatımızda digər sahələrin inkişafına bu və ya digər dərəcədə təsir göstərir. Bu sabitliyin qorunub saxlanılması isə o halda mümkün olur ki, işə kompleks şəkildə yanaşılsın, dövlətin həyata keçirdiyi müvafiq profilaktik tədbirlərlə yanaşı, cəmiyyətin özündə də bu işə ümumi maraq formalaşsın. Dünyanı cənginə almış pandemiya şəraiti bunu bir daha təsdiq etdi. Hansı ölkədə işə kompleks yanaşılırsa, pandemiya şəraitinə nəzarət bir o qədər yüksək olar və aparılan profilaktik tədbirlər daha effektiv təsir bağışlayar. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında aparılan tibbi və gigiyenik profilaktik tədbirlər, eləcə də maarifləndirmə işləri nümunə gücündədir.***

# Epidemioloji sabitliyi qorumaq hər kəsin vətəndaşlıq borcudur

Kəskin respirator virus infeksiyalarından qorunmağın və xəstəliklərə yoluxmamağın vacib üsulları, əhalinin sanitar-epidemioloji sağlamlığının təmin edilməsinə yönəldilmiş tədbirlərin təşkili və həyata keçirilməsi, yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində görülən işlər, sanitar-epidemioloji vəziyyətin sabit qalmasını şərtləndirən amillər haqqında məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitariya-gigiyena şöbəsinin müdiri Elxan Orucəliyevə müraciət etdik.

Elxan həkim bildirdi ki, qış soyuğu və şaxtası ilə bərabər, bir sıra mövsümi xəstəlikləri də özü ilə gətirir. Xüsusilə də xroniki, infeksion xəstəliklər bu mövsümdə kəskinləşir. Həm də bu mövsümdə tənəffüs yolları xəstəlikləri də çox artır. Havanın temperaturu, atmosfer təzyiqi, küləyin təsiri ilə əlaqədar olaraq burun, udlaq, boğaz boşluğunda qrip kimi respirator xəstəliklər yaranır. Buna səbəb soyuq havaların orqanizmdə immuniteti azaltmasıdır.

Həkim qeyd etdi ki, havaların soyuması və bununla əlaqədar insanların daha kompakt yaşayışı səbəbindən qrip və bu kimi xəstəliklər artır. Hazırda dünya üzrə kifayət qədər yayılaraq pandemiyaya səbəb olmuş koronavirus infeksiyasının bu xəstəliklərlə oxşar əlamətlərinin olması qarşımızdakı günlərdə daha bir aktual məsələnin – bu xəstəliklər arasında diferensiasiya aparılmasının vacibliyini doğurur.

Həkim onu da diqqətimizə çatdırdı ki, soyuqdəymə və qripin əlamətləri halsızlıq, bədən hərarətinin qalxması, boğazda yanma, burun tutulması, axması və əzələ ağrılarıdır: – Mədə-bağırsaq sisteminin xəstəlikləri, ürək-damar, böyrək və xroniki xəstəlikləri olanlar, şəkərli diabet və qan təzyiqindən əziyyət çəkənlər bu fəsildə daha diqqətli olmalıdırlar. Çünki belə xəstəliklər, əsasən, bu fəsildə kəskinləşir və orqanizmdə müəyyən narahatlıqlar yaradır. Belə ki, virusa yoluxan orqanizm zəifləyir, gücdən düşür və temperatur dəyişkənliyinə hazır olmadığı üçün müxtəlif xəstəliklərə yoluxma ehtimalı artır. Qripin yoluxma səbəbi hava-damcı yolu ilə keçən infeksiya və ortaq istifadə edilən əşyalardır. Buna görə də qripə yoluxmuş adamdan uzaq gəzmək, tibbi maska və əlcəklərdən istifadə etmək, gigiyena qaydalarına riayət etmək vacibdir.

Qrip virus ailəsinin ciddi virus qrupudur. Son vaxtlar yayılan A, B ştamları var. B ştamları



daha ağır fəsadlar verir, həyat üçün daha risklidir. Amma tənəffüs sistemini zədələyən digər xəstəliktörədicilər, viruslar var ki, onlar daha yüngül keçir. Fərq isə ondadır ki, bu virusların, xüsusilə uşaq kollektivlərində tez yayılma ehtimalı həddindən artıq çoxdur.

Mövsüm dəyişikliyi ilə bağlı xəstəliklərdən qorunmaq yolları barədə danışan həkim bildirdi ki, payız-qış mövsümünün xarakterik xəstəliklərinə soyuqdəymə, faringit, sinuzit, bronxit və pnevmoniya aiddir. İqlim dəyişkənliyini insanlar çəkisindən, orqanizmin immunitet səviyyəsindən asılı olaraq müxtəlif formada keçirirlər. Bəzi insanlarda bu, özünü halsızlıq, yorğunluqla göstərsə də, bəzilərində yuxusuzluq, iştahasızlıq və depressiya ilə müşahidə olunur. Çox vaxt soyuqdəymə ilə başlayan və fikir verilmədikdə ağır fəsadlar yarada bilən yoluxucu xəstəliklər yayılmağa başlayır.

Mütəxəssis qeyd edir ki, qış aylarında xəstəliklərdən qorunmaq üçün soyuqdan uzaq durmaqla yanaşı, həm də qida rasionuna diqqət yetirmək çox vacibdir. Uşaqlar, qocalar və xroniki xəstəliyi olan insanlar payızda sağlamlıqlarının qorunması üçün düzgün qidalanmalıdırlar. Çünki hava dəyişdikcə insan orqanizmində vitamin və minerallara ehtiyac artır. Biz bu ehtiyacları qida vasitəsilə ödəməliyik. Gündəlik qida rasionuna mütləq kök, kələm, bibər, çuğundur kimi tərəvəzlər, göyərtilər, ağartı məhsulları daxil olmalıdır. Bununla yanaşı, təbii meyvə şirələrindən istifadə də immuniteti gücləndirmək üçün vacib vitamin depoları sırasındadır.

Həkimin dediyinə görə, bitki çayları və salatlar da orqanizmin vitamin ehtiyacını ödəyir. Payız fəslində orqanizmin vitamin və mineral ehtiyacını ödəmək insanları qışda ağır xəstəliklərdən qoruyur. Meyvələrdən üzüm, nar, portağal və moruq xəstəliyə yoluxma riskini azaldır. Onu da bildirək ki, immuniteti zəif olan uşaq və yaşlı insanların vitaminlərə, xüsusən də C vitamininə daha çox ehtiyacı vardır. Ona görə də bu vitamini daha çox qəbuluna çalışmaq lazımdır. Deyilənlərə əməl edildikdə, qışı sağlam keçirmək mümkündür.

Bütün bunları insanların sağlamlığı qayğısına qalması üçün zəruri ehtiyac və tələb kimi diqqətə çəkən Elxan həkimə görə, bu, məsələnin bir tərəfidir. Digər tərəfdən isə planlı şəkildə vaksinlərlə idarə olunan digər yoluxucu xəstəliklərə qarşı immunoprofilaktika və nəzarət tədbirləri aparılmalıdır. Həkim deyir ki, vaksin dərman deyil, sağlam insanları yoluxmadan qoruyur. İnfeksiyalardan qorunmaq və xəstəliyə yoluxmamaq üçün xəstə insanlarla təmasda olmamaq, tibbi maskadan istifadə, əlləri tez-tez sabunla yumaq və ya spirtlə silmək kimi gigiyenik qaydalara əməl etmək də olduqca vacibdir.

Muxtar respublikada virus infeksiyalarına və yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlərdən bəhs edən həkim insanların sıx top-



laşdığı ərazilərdə dezinfeksiya işlərinin mütəmadi həyata keçirildiyini də vurğuladı. Onun sözlərinə görə, bu məqsədlə ərazi Gigiyena və Epidemiologiya mərkəzlərinin həkim-epidemioloq, epidemioloq köməkçiləri, dezinfektor təlimatçılarının iştirakı ilə məktəb və bağçalarda dezinfeksiya işləri aparılır. Naxçıvan şəhər Gigiyena və Epidemiologiya Mərkəzi dezinfeksiya tədbirlərini əsas etibarilə siniflərdə, idman zallarında, qarderoblarda, bufet və yeməkxanalarda, dəhlizlərdə, sanitar qovşaqlarda və digər yerlərdə həyata keçirir. Tibb işçiləri tərəfindən məktəb və məktəbəqədər uşaq müəssisələrinin girişində tibbi müşahidələr aparılır. İxtisaslaşdırılmış kabinələrdə termometriya işi təşkil edilib. Uşaqlar, müəllimlər, tərbiyəçilər və başqalarında kəskin respirator virus infeksiyası xəstəliyinə şübhəli hal aşkar olunduqda dərhal sağlam kollektivdən təcrid edilərək evdə ambulator müalicəyə cəlb olunması təmin edilib. Xəstəlik halları müşahidə edilmiş uşaqlar haqqında isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbəsi ilə əlaqə saxlanılıb. Bu səhiyyə müəssisəsində iki saatdan bir otaqların havası təmizlənir.

Həmçinin Naxçıvan şəhərinin əsas küçə, yol, prospekt, məhəllə, döngə və səkiləri, ali, orta ixtisas təhsili müəssisələri, xidmət və iaşə obyektləri, avtovağzallar və ictimai nəqliyyat vasitələri dezinfeksiya olunub. Bu tədbirlər çərçivəsində Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın digər rayon və şəhərlərində də dezinfeksiya işləri intensiv olaraq davam etdirilir. Eyni zamanda bu cür xəstəliklərə yoluxma riski daha çox olan kollektivlər arasında vaksinasiya işləri də yerinə yetirilir.

Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrinin genişlənməsi də sanitar tədbirlərin aparılmasını zəruri edir. Xüsusilə muxtar respublikaya xaricdən gətirilən müxtəlif adda məhsulların sanitar-gigiyenik normalara uyğunluğunun yoxlanılması bu işin əsas istiqamətlərindəndir. İdxal məhsullarına nəzarətin daha da gücləndirilməsi bu sahədə görülən işlərin prioritet istiqamətlərindən biri kimi diqqətdə saxlanılır.

Bütün bunlar pandemiya şəraitində epidemioloji sabitliyin qorunmasına öz töhfəsini verir. Xüsusi təhlükəli xəstəliklərin profilaktikası məqsədilə müxtəlif nümunələr götürülüb. Əldə olunmuş nəticə isə odur ki, Naxçıvan Muxtar Respublikasında yoluxucu xəstəliklərin kütləvi yayılması qeydə alınmayıb. *Koronavirusinfo.az* saytının verdiyi məlumata görə, Naxçıvan ölkə ərazisində yeni COVİD-19 virusuna yoluxma sayına görə 0,06 faizlə ən az göstəriciyə sahibdir.

Sanitar-epidemioloji vəziyyətin qorunub saxlanılmasında əsas tədbirlərdən biri də maarifləndirmə işlərinin aparılmasıdır. Həkim onu da qeyd etdi ki, bunun üçün həm kütləvi



informasiya vasitələrinin imkanlarından istifadə olunur, həm də mütəmadi olaraq əhali arasında maarifləndirici söhbətlər təşkil edilir.

*Mütəxəssisin də vurğuladığı kimi, indiki kritik məqamda cəmiyyətin hər bir üzvü nə etməli olduğunu bilməlidir. Virusdan qorunmaq üçün əsas şərt sosial izolyasiyaya əməl etmək, insanların sıx toplaşdığı yerlərdən uzaq durmaq, qapalı, ictimai yerlərdə maskadan istifadə və şəxsi gigiyena tələblərinə diqqət göstərməkdir. Unutmamalıyıq ki, yalnız sanitar-gigiyenik qaydalara ciddi əməl edərək özümüzün, ətrafımızdakıların, ümumiyyətlə, cəmiyyətimizin sağlamlığını qoruya bilərik.*

✍ **Gülcamal TAHİROVA**

*Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Təsviri incəsənət kafedrasının müəllimi Ləman Məmmədovanın "Azərbaycan xalçaçılıq sənəti" adlı dərs vəsaitinin təqdimatı olub.*

## Kitab təqdimatı olub

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev təqdimatı keçirilən kitabı müvafiq Dövlət proqramının icrası istiqamətində mühüm töhfə olaraq dəyərləndirib.



Təsviri incəsənət kafedrasının professoru, Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev çıxış edərək elmi məsləhətçisi və elmi redaktoru olduğu kitabın müəllifi haqqında fikirlərini bildirib.

Kafedranın baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva dərs vəsaitində xalçaçılıq tarixi, xalçaçılıq texnikası, xalça növləri və məmulatları, onların ideya-bədii xüsusiyyətlərinin inkişaf mərhələləri, xalça sənəti məktəbləri haqqında verilən ətraflı bilgilər barədə fikirlərini söyləyib.

Elmi Kitabxananın direktoru Fariz Əhmədov bildirib ki, kitabda dekorativ-tətbiqi incəsənət, Azərbaycanda dekorativ-tətbiqi sənət növləri, Azərbaycan xalçaçılıq tarixindən və məşhur xalçaçı-rəssam Lətif Kərimovun həyat və yaradıcılığından məlumat verilir.

Sonda müəllifin rəsm əsərlərindən ibarət sərgiyə və Əzizə Məmmədovanın tərtib etdiyi xalçaçılıq kompozisiyasına baxış olub.

**Səadət ƏLİYEVA**

## "Zəfər bizimdir, Qarabağ Azərbaycandır!" adlı tədbir keçirilib



"Naxçıvan" Universitetində İkinci Qarabağ müharibəsi – Vətən müharibəsində qazandığımız şanlı Qələbəmizə həsr olunmuş "Zəfər bizimdir, Qarabağ Azərbaycandır!" adlı tədbir keçirilib.

"Naxçıvan" Universitetinin şəhərciyində açıq havada keçirilən tədbir başlanmazdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, işğalçı Ermənistan Azərbaycan Respublikası Prezidentinin qətiyyətli iradəsi, şanlı Ordumuzun göstərdiyi şücaət sayəsində məğlub edildi və torpaqlarımızdan çıxmağa məcbur oldu. Müzəffər Ali Baş Komandan və rəşadətli Ordumuz Ermənistanın 4 ilə işğal etdiyi, təxminən, 30 il ərzində müdafiəsini möhkəmləndirdiyi torpaqlarımızı 44 günlük döyüş, 20 günlük isə siyasi-diplomatik vasitələrlə, cəmi 2 ay ərzində tam azad etməklə möhtəşəm zəfər tarixi yazdı. Ali Baş Komandanımızın qətiyyətli iradəsi nəticəsində siyasi müstəvidə qazandığımız digər uğurumuz isə Naxçıvan Muxtar Respublikasının quru yolu vasitəsilə uzun illər sonra yenidən doğma Azərbaycanımıza qovuşması ilə əlaqədardır. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı bəndlər regionun yeni nəqliyyat xəritəsinin konturlarını müəyyənləşdirir.

Sonra tədbirin bədii hissəsi olub. Tələbələrin ifasında bayrağımıza həsr olunmuş şeirlər və milli mahnılarımız səsləndirilib. Tələbələr tərəfindən hazırlanan müxtəlif hərbi döyüş səhnəcikləri tədbir iştirakçılarının marağına səbəb olub.

Sonda fəal iştirak edən tələbələr mükafatlandırılıb.

**Seyfur HACIMURADOV**

5 dekabr – Beynəlxalq Könüllülər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər

## Könüllülər mükafatlandırılacaq



Əliyev adına Gənclər Birliyi tərəfindən "Könüllü gənclər həftəsi" çərçivəsində tədbirlər keçirilib.

Tədbirləri keçirməkdə məqsəd könüllü gənclərin fəallığının artırılması, 5 dekabr – Beynəlxalq Könüllülər Gününün qeyd olunması və gənclərin asudə vaxtlarının səmərəli təşkilindən ibarət olub.

Layihə çərçivəsində könüllü gənclər "Xəmsə" milli intellektual oyununda və futzal üzrə birincilikdə qüvvələrini sınayıblar.

Qeyd edək ki, mükafatlandırma mərasimi dekabr ayının 4-də Naxçıvan şəhərindəki "Görüş yeri" kafesində keçiriləcək. Tədbirlər zamanı yarışların qalibi olan gənclər və 2020-ci il ərzində keçirilən tədbirlərdə fəal iştirak edən könüllü gənclər diplom, medal və hədiyyələrlə təltif olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 898